Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**F.Köçərli adına Respublika
Uşaq Kitabxanası**




# Azərbaycanın Əfsanələr paytaxtları

(Gəncə, Şabran, Gədəbəy, Xaçmaz, Qəbələ)

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# Azərbaycanın Əfsanələr paytaxtları

(Gəncə, Şabran, Gədəbəy, Xaçmaz, Qəbələ)

**Respublika Uşaq kitabxanaları
üçün tövsiyə biblioqrafiyası**

**Bakı-2017**

**Tərtibçi:** **Nazilə Tahirova**
*Əməkdar mədəniyyət işçisi*

**Redaktoru və buraxılışa məsul**: **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Azərbaycanın əfsanələr paytaxtları:** (Gəncə, Şabran, Gədəbəy, Xaçmaz, Qəbələ) tövsiyə biblioqrafiyası /tərt. ed. N.Tahirova; red. və bur. məs. Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2017.- 26 s.

**©F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

# Tərtibçidən

Azərbaycanın mədəni zənginliyinin dünyada daha geniş şəkildə tanıdılması, bu tarixi mirasın qorunaraq gələcək nəsillərə çatdırılması dövlət başçısı İlham Əliyevin daim diqqət mərkəzindədir. Azərbaycan Prezidentinin 2012-ci il 29 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında bu sahəyə xüsusi yer ayrılır. Ölkə rəhbərinin 2013-cü il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilən “Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı” da mədəni irsə qayğının göstəricisidir. Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, vitse-prezident Mehriban xanım Əliyevanın bu sahəyə ayırdığı diqqət də mədəni sərvətlərə yüksək dəyər verilməsinin əsl parlaq nümunəsi hesab olunur. Məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə xalq sənətkarlığının inkişaf etdirilməsi, muğam sahəsində yeni istedadların üzə çıxarılması, folklor yaradıcılığımızın təbliği və mədəni irsin müxtəlif sahələrində həyata keçirilən layihələr çox geniş məkanda rezonans doğurmaqdadır.

Bu sahədə reallaşdırılan müvafiq konseptual proqram və layihələr sırasında “2010-2014-cü illər üçün xalq yaradıcılığı paytaxtları” proqramının xüsusi yeri vardır. Proqramın əsas vəzifəsi regionlarda müvafiq tədbirlərin təşkil olunması vasitəsilə Azərbaycanın qeyri-maddi mədəni irsinin qorunmasına, xalq yaradıcılığının təşviqinə, tarazlı və davamlı regional sosial-iqtisadi inkişafa töhfə verməkdir. Ötən beş ildə proqrama əsasən üç nominasiya - əfsanələr, sənətkarlıq və folklor üzrə Azərbaycanın 15 rayon və şəhəri “Xalq yaradıcılığı paytaxtı” elan olundu.

Bütün bunları nəzərə alaraq Firidun bəy Köçərli adına Respublika Uşaq kitabxanasının Ölkəşünaslıq və milli ədəbiyyat şöbəsi **Azərbaycanın əfsanələr paytaxtları:** (Gəncə, Şabran,

Gədəbəy, Xaçmaz, Qəbələ) adlı tövsiyə biblioqrafiyası hazırlamışdır.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan göstərici tövsiyə olunan ədəbiyyatdan ibarətdir. Girişdə mövzu haqqında ətraflı məlumat verilmişdir.

Tövsiyə göstəricisində kitablarda, məcmuə və dövri mətbuat səhifələrində dərc edilmiş materiallar öz əksini tapmışdır. Vəsaitdə ədəbiyyat xronoloji prinsip əsasında, daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır.

**Ünvan:** Bakı şəh., S.Vurğun küç.88;
**E-mail:** childlibbaku@yahoo.com

# GİRİŞ

Dahi Nizaminin vətəni, qədim mədəniyyət abidəsi - Gəncə şəhəri Kiçik Qafqazın şimal-şərq tərəfində, Gəncə-Qazax düzündə, Gəncə çayının hər iki sahilində yerləşir. Azərbaycanın ictimai-iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynamış bu şəhər karvan yollarının kəsişməsində yerləşirdi. Zəngin tarixin səhifələrini vərəqləyərkən biz onun hər bir sətrində qədim şəhərin izlərinə rastlaşırıq, onun səsini eşidir, nəfəsini hiss edirik.

Hələ 40-cı illərdə, arxeoloji qazıntılar zamanı, tədqiqatçılar belə bir fikrə gəlmişlər ki, Gəncənin ərazisində yaşayış məskəni hələ eramızdan əvvəl var idi. «Gəncə» adının nədən başlanması, hansı anlamı bildirməsi haqda elmi ədəbiyyatda müxtəlif fikirlər mövcuddur. Araşdırıcılardan bir qrupu onun pəhləvi (parfiya) sözü olan «gəncə», yəni «xəzinə», bir qismi geniş, böyük mənasına gələn «gencə» ifadələri ilə, digərləri isə əsgi türk tayfaları hunlar və gəncəklərin adı ilə bağlı olması versiyalarını irəli sürürlər.

Gəncənin turizm ixtisaslaşması istirahət-müalicə, dərketmə istiqamətindədir. Əlverişli iqlim şəraitinə malik dağ-meşə landşaftı,

mineral su ehtiyatları ilə zəngin bölgə turizmin inkişafı baxımından perspektivlidir. Qədim tarixə malik bu şəhərdə hazırda 500-dən çox tarixi abidə, 217 qədim bina, 4 teatr, 5 muzey var və çoxlu sayda digər mədəniyyət obyektləri fəaliyyət göstərir. Nizami Gəncəvinin məqbərəsi, Cümə məscidi, İmamzadə tikililər kompleksi, Şeyx İbrahim məqbərəsi, karvansara və s. Gəncənin maraqlı turizm obyektləridir. Böyüklüyünə və iqtisadi əhəmiyyətinə görə respublikanın ikinci şəhəri olan Gəncənin cənubunda dəniz səviyyəsindən 1556 m yüksəklikdə yerləşən Göygölün ətrafında Göygöl və Hacıkənd istirahət zonaları, Göygöl DTQ yaradılmışdır. Göy Göl qoruğu ərazisində 423 növ ağac, kol, dərman bitkiləri var. Bunların 76 növü sırf ağac və koldur. Qalanları isə çəmən bitkiləridir. Ərazidə maral, cüyür, ayı, çöl qabanı, dağ keçisi, canavar, tülkü, çaqqal, porsuq, oxatan kirpi, çöl pişiyi, vaşaq kimi heyvanlar var. Bundan başqa ağ baş kərkəz, dağ hinduşkası və tetra kimi nadir quşlar da mövcuddur.






***Nizami Gəncəvinin məqbərəsi*** ***Şah Abbas (cümə)məscidi***

Qeyd edək ki, 1139-cu ildə Gəncədə baş vermiş zəlzələ nəticəsində Kəpəz dağı uçaraq Ağsu çayının qarşısını kəsib. Nəticədə isə füsunkar gözəlliyi, xüsusilə də suyunun şəffaflığı ilə seçilən məşhur Göy Göl və Maralgöl, Çilli göl, Qara göl, Güzgü göl, Zəli göl yaranmışdır. Həmçinin ərazidə çay kənarında Yeddi bulaq. Göy dağ bulağı. Novruz bulağı, Gişxanım bulağı, Dərzi qaya bulağı, Xatın bulağı, Cınqır dağının bulağı vardır.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq olunmuş “2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları” Proqramına əsasən 2010-cu il üçün Gəncə şəhəri “Azərbaycanın Əfsanələr Paytaxtı” elan edilib.

Təsdiq edilmiş illik tədbirlər planına uyğun olaraq Gəncə şəhərində təntənəli mərasimlər, respublika və beynəlxalq səviyyəli elmi-praktiki konfranslar, dəyirmi masalar, konsertlər, müsabiqələr, sərgilər və sair tədbirlər təşkil edilmişdir.

Ötən əsrin 30-cu illərində aşkarlanan qədim Şabran şəhərini Sasanilər sülaləsindən olan Şah Xosrov Ənuşirəvan qala-şəhər kimi tikdirib. IX-X əsrlərdə isə bu şəhər iri siyasi-inzibati, ticarət, sənət

və mədəniyyət mərkəzinə çevrilib. Amma XIII əsrin ortalarında monqolların hücumuna məruz qalaraq dağıdılıb. Şəhər sonrakı dövrlərdə özünə gəlsə də, Səfəvi-Osmanlı müharibələri zamanı tamamilə məhv olub. Burada aparılan arxeoloji qazıntılar isə bu şəhərin tarixinin daha qədim olduğunu təsdiqləyir.
Qədim Şabranda tapılan maddi-mədəniyyət nümunələri burada müsəlmanlarla yanaşı xristian və yəhudilərin də yaşadığını deməyə əsas verir. Tolerant bir şəhər kimi məşhur olan Şabran digər cəhətləri ilə də fərqlənir. Tarixçi Əsədulla Hüseynovun sözlərinə görə, qədim Şabranda qibtə ediləcək səviyyədə istehsal sahələri olub və şəhərsalma prinsiplərinə əməl edilib.

O dövrdə tikinti materialı kimi geniş istifadə olunan qırmızı kərpic məhz Şabran şəhərində istehsal edilirdi. Eləcə də qızılın əyarını müəyyənləşdirmək üçün burada nəhəng daşları da var idi ki, tarixçilər bunu da maraqlı fakt kimi dəyərləndirirlər. Deyilənə görə, bu yerlərdə 40 dəvə yükü qızıl da basdırılıb. Yayılan bu əfsanələr Şabranın qədim bir məskən olmaqla hələ sirrinin də tam açılmadığını göstərir.

Zəngin tariximizi vərəqlədikcə, onun hər səhifəsində qədim yaşayış məskənlərinin izləri ilə rastlaşırıq. Şabran Azərbaycanın ictimai-iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynayıb. Bu şəhərin xarabalığı Böyük Qafqaz sıra dağları ilə Xəzər dənizi arasında, dəniz səviyyəsindən 75 m hündürlükdə qərar tutub. Tədqiqatçılar yazılı tarixi mənbələrə və şəhərin müxtəlif hissələrində aparılan arxeoloji qazıntıların nəticələrinə əsaslanaraq burada yaşayışın eramızın əvvəllərindən XVIII əsrədək davam etdiyini müəyyən ediblər. Şabranda qaynar şəhər həyatı dövrü IX-XV əsrlərə təsadüf edib.

Müxtəlif mənbələr Şabranın qüdrətli Şirvanşahlar dövlətinin ilk paytaxtı olduğunu göstərir. Şabranın bu statusu IX əsrə qədər, yəni Şamaxı şəhəri yüksələnədək davam edib. Şəhərin Şirvanşahların iqamətgahı olmasını sübut edən faktorlardan biri də burada Şirvanşahlar nəslinə aid sərdabənin olmasıdır. Monqol əsarəti dövründə Şabran əsas şəhər rolunu oynayıb. Həmin dövrdə monqol

hökmdarının vəziri, tarixçi Fəzullah Rəşidəddinin oğluna yazdığı məktubda Şabrandan bəhs edib.

XIV əsrdə Teymurləng Azərbaycana hücum edərkən Dərbənd şəhəri dağıdılır və liman funksiyasını itirir. Həmin vaxt Şabranda dəniz ticarəti də fəallaşır. XVI-XVII əsrlərdə Səfəvilər dövləti (İran) ilə Osmanlı (Türkiyə) arasında gedən müharibələrdə Azərbaycan şəhərlərinin tənəzzülü başlandı. Şabran da gah Səfəvi, gah da Osmanlı dövlətinin hakimiyyəti altına keçirdi. Şəhərə hücumlar əhalinin başqa yerlərə köçməyə məcbur edirdi. XVIII əsrin ortalarında əhalinin azalma prosesi daha da sürətlənib.

Şabranın tarixi ərazisinə gəlincə, o, indiki Şabran (keçmiş Dəvəçi) rayonunun Şahnəzərli və Rəhimli kəndləri arasında, Şabrançay sahilində yerləşib. Mənbələrdə 1796-cı ildə Şabranın 96 kəndinin və burada 1196 evin olduğu bildirilir. Bu zaman Şabran mahal mərkəzi kimi xatırlanır. XIX əsrin əvvəllərində isə yalnız çay adı kimi qeyd olunur.



***Cıraqqala tarixi memarlıq abidəsi***

Şabranda bir sıra qədim abidə və tikililər günümüzə qədər gəlib çıxıb. Qədim Şabran körpüsü orta əsrlər Azərbaycan memarlıq sənətinin ən yaxşı nümunələrindən hesab oluna bilər. Üç tağının

əsasının qalıqları aydın görünən bu körpü hazırda Bakı-Quba magistral yolunun sol tərəfində, Ərəblər və Pirəmsən kəndləri hüdudlarındadır. Şabran şəhərinin abadlığından bəhs edərkən burada XI-XII əsrlərə aid küçəni, üstü örtülü kanalizasiya sistemini qeyd etmək lazımdır. Bunu qazıntılar zamanı tapılan çay daşlarından düzəldilmiş tikinti qalığı sübut edir. Müəyyən yerlərdə, uzunluğu 1,5, eni 20 sm olan bütün daşların ortası nov şəklində yonularaq kanalizasiya xəttinə qoşulub. Aparılan son araşdırmalar zamanı Şabran şəhərinin yerində uzunluğu 5 m olan su arxının qalıqları, qala bürcləri, IX-X və XVI-XVII əsrlərə aid saxsı qablar, mis pullar, «sandıq» formasında olan məzar daşları tapılıb. Hər addımında qədim rəvayətlərlə qarşılaşdığımız Şabran doğrudan da, əfsanələr diyarıdır.

2003-cü ildə ümummilli lider Heydər Əliyevin sərəncamı ilə Şabran şəhəri tarixi mədəniyyət qoruğu elan edilib. Ötən il isə rayona öz qədim adı qaytarılıb. Bütün bunlar isə qeyri-maddi mədəni irsin daha geniş miqyasda təbliğ və təşviqini zəruri edir. Bu məqsədlə abidələrin bərpası və təbliği istiqamətində layihələrin həyata keçirilməsini nəzərdə tutan tədbirlər planı artıq hazırdır.

Əfsanələr paytaxtı elan edilməsi ilə bağlı Şabranda bu il ərzində həmçinin bir sıra mərasimlərin, respublika və beynəlxalq səviyyəli elmi-praktik konfransların, konsert, müsabiqə, sərgi və digər mədəni tədbirlərin təşkili nəzərdə tutulub. Mədəniyyət və Turizm Nazirliyi tərəfindən artıq rayona “Şabran - Azərbaycanın əfsanələr paytaxtı” rəmzi kuboku təqdim edilib və gerbi hazırlanıb. Bu il Şabranda Poeziya və kitab evləri istifadəyə veriləcək, şəhərin mərkəzində Əfzələddin Xaqaninin heykəli ucaldılacaq. Şabranın qədim tarixini, folklorunu, turizm potensialını və çağdaş dövrünü özündə əks etdirən kitab da hazırlanır.




Ölkəmizdə qədim insan yaşayış məskənlərindən olan Gədəbəy təbii gözəllikləri, tarixi-mədəni irs nümunələri ilə zəngindir. Keçmişimizin bir çox qatlarına şahidlik edən bu torpağın tarixi ilə bağlı çoxsaylı əfsanə və rəvayətlər var. Onları öyrənib üzə çıxarmaq həm də mədəni irsimizin bir sıra maraqlı səhifələrinə işıq salmaq deməkdir. Təsadüfi deyil ki, Mədəniyyət və Turizm Nazirliyinin "Xalq yaradıcılığı paytaxtları proqramı"na əsasən, Gədəbəy şəhəri 2012-ci ilin "Əfsanələr paytaxtı" elan edilib.

Gədəbəy sözünün mənası barədə müxtəlif versiyalar irəli sürülsə də, bu adın "qada" (qədim türkcədə əziz, hörmətli) və "bəy" sözlərindən yaranması üzərində daha çox dayanılır. Bəzi mənbələrdə isə sözün albanca hündürlük, ucalıq mənasını verən "keta", dağ anlamında işlənən "bay" sözlərinin birləşməsindən yarandığı deyilir.

Ərazidəki qədim abidələr eramızdan əvvəl XII-VII əsrləri əhatə edən Xocalı-Gədəbəy mədəniyyətinin bir hissəsi kimi tariximizə daxil olub. Bu sırada tunc dövrünün sonuna aid siklopik tikililəri, Böyükqala, Qalakənd qalası (XVI əsr) və Qız qalasını (IX əsr) qeyd etmək olar. Rayon ərazisində «Gədəbəy dəfinələri» adı ilə məşhurlaşan, içərisində müxtəlif qiymətli əşyalar, boyunbağılar və bəzək nümunələri, gümüş sikkələr olan qədim küplər tapılıb. Bu

sikkələr Səfəvi şahı Təhmasibin hakimiyyətdə olduğu dövrdə (1524-1576) zəbt edilib. Qala kəndi ərazisində, yüksək yerdə tikilmiş qala möhtəşəmliyi ilə diqqət çəkir. Tikilinin xalq qəhrəmanı Koroğlunun istinadgahlarından biri olduğu bildirilir.

Gədəbəy rayonu tarixi və arxeoloji abidələrlə zəngindir. Bölgəyə şöhrət gətirən təkcə təbiəti və gözəlliyi deyil, həm də bir çox qala, qalaça və körpülər, mağaralar, kilsə və məbədləridir. Bunların hər birinin öz tarixi, öz taleyi var. Təəssüf ki, onlardan bir hissəsinin adları vaxtilə dövlət tərəfindən mühafizə olunan abidələr siyahısına salınmayıb. İndi Gədəbəy Rayon Mədəniyyət və Turizm Şöbəsi bunları dəqiqləşdirərək müvafiq təşkilatlar qarşısında məsələ qaldırıb. Rayonda 1 dünya, 81 ədəd ölkə və 24 ədəd yerli əhəmiyyətli abidə qeydə alınıb. Dağlar diyarının hər guşəsində qala və qalaçalar, müdafiə istehkamları, məbəd və türbələr diqqəti cəlb edir. Koroğlu qalası, Cənnətqala, Qız qalası, Zəngi qala... Hərəsi bir sənət əsəri, xalqın mənəvi tarixinin əvəzsiz yadigarı olmaqla özündə əfsanələr yaşadır...




***Qız qalası***

Söyüdlü kəndindəki dünya əhəmiyyətli Böyük Qalaça nəhəng daşlardan hörülmüş uca bir qala-dağdır. Buradakı Qız qalası isə əsl

möcüzədir. O da yüksək qayalığın başında, son dərəcə mənzərəli, füsunkar bir sahədə yerləşir. Yaxınlıqda çay axır, şəlalə çağlayır. Qız qalası beş dairəvi sütundan ibarətdir. Hamısı da kərpiclə hörülüb. Cəm halında bu kompleks qədim şəhəri xatırladır. Gədəbəyin ən baxımlı yerlərindən biri də Qalakənddir. Rayon mərkəzindən xeyli aralı, Şəmkir çayının sahilində, uca dağların, sıx meşələrin qoynunda yerləşir.

Dağlar diyarının turizm üçün çox münbit şəraiti var. Ona görə də bu yerlər həmişə qonaq-qaralı olur. Xüsusən yay aylarında bura gəlib-gedən çox olur. XIX əsrin ortalarında Simens qardaşları bu yerlərə gəlib çıxmışdılar. Filiz yataqları kəşf edilmiş, dağların qoynunda zavodlar tikilmiş, elektrik stansiyası inşa edilmiş, dəmir yolu xətti çəkilmiş, körpülər salınmışdı. Bütün bunlarla yanaşı, uzaq elli sahibkarlar bu səfalı guşədə qış turizminin inkişafı üçün də xeyli iş görmüşdülər. Burada xizək, konki yarışları, hokkey oyunları keçirilmişdir.

"Əfsanələr paytaxtı" ili çərçivəsində keçiriləcək tədbirlərdə bu mövzuya da yer verilmişdir: Əslində bu özü bir geniş mövzudur. Nəzərə alsaq ki, hələ XIX əsrin sonlarında Gədəbəydə yay və qış turizm növlərinin mövcudluğu faktlarla təsdiq edilmişdir, onda turizmin Gədəbəy üçün nə demək olduğu daha qabarıq aydın olur.

Gədəbəydə "Əfsanələr paytaxtı" münasibətilə rayon mərkəzində keçirilən təqdimat mərasimində «Arxeoloji əfsanələr», «Memarlıq əfsanələri», «Turizm əfsanələri», «Siemens əfsanələri», «Saz - söz əfsanələri», «Əfsanə həmyerlilər» və «Qəhrəmanlıq əfsanələri» bölmələrində rayonun tarix və mədəniyyətini əks etdirən 500-dək fotoşəkil, müxtəlif illərdə mətbuat səhifələrində dərc olunmuş yazılar, kitablar nümayiş etdirilmişdir.

Gədəbəy aşıqları ilə tanınan bölgədir. İl ərzində "Dastan günü", "Ədəbi-bədii məqamlar", "Gədəbəy mətbuatda" adlı elmi-praktik konfrans və tədbirlər keçirilmiş, saz və instrumental musiqi nümunələrindən ibarət konsert hazırlanmışdır. Şifahi xalq yaradıcılığı ilə bağlı tədbirlərə də geniş yer verilmişdir. Aşıq İslamın rəhbərliyi ilə dastan gününün keçirilməsi, "Şəlalə" ədəbi

məclisinin təşkil edilməsi, Gədəbəy rayonunun Azərbaycan aşıq sənətində önəmli rolundan bəhs edən elmi-praktik konfransın təşkili nəzərdə tutulan tədbirlər sırasındadır. “Əfsanələr paytaxtı”nda bir sıra maraqlı incəsənət tədbirləri də baş tutmuşdur. “Dağın yazı - aşığın sazı” ədəbi-bədii kompozisiyasının təqdimatı, “Xalq aşığı”, “Sudaruşka” ansambllarının konsertləri olmuşdur. Gədəbəyin mədəniyyəti, tarixi və turizmi ilə bağlı telefilmin çəkilməsi də planlaşdırılmişdir.




Mədəniyyət və Turizm Nazirliyinin “Xalq yaradıcılığı Paytaxtları” proqramı çərçivəsində Xaçmaz rayonu 2013-cü il üçün “Əfsanələr paytaxtı” elan edilib. Xaçmazlılar deyirlər ki, bu hadisə Xaçmazın dünəninə, bu gününə, sabahına qızıl hərflərlə yazılıb. Ölkənin qeyri-maddi, mədəni irsinin qorunması, xalq yaradıcılığının təbliği istiqamətində aparılan islahatların davamı kimi keçirilən yekun tədbirlər Xaçmazda mədəni tərəqqinin yeni-yeni nailiyyətlərinin ortaya çıxdığını bir daha göstərdi.

Rayonun giriş qapısından daxil olanda istər-istəməz hamını bir sual maraqlandırır: "Xaçmazın əfsanələri nədən ibarətdir?"

Xaçmaz adının vaxtilə bu ərazidə yaşamış və mübariz Hun qəbilələri birliyinə daxil olmuş Xaçmataka qəbiləsinin adından əmələ gəlməsi barədə fikirlər var. Xaçmazla bağlı əfsanələrin birində isə "Xaçmaz - xaçı qəbul etməyən" mənasında işlədildiyi bildirilir. Belə ki, tarixən mövcud olan Albaniya feodal dövlətində xristianlıq dövlət dini olub. Lakin Xəzər sahilində indiki Xaçmaz rayonu ərazisində yaşayan tayfalar atəşpərəst olduğundan, xristianlığı və xaçı qəbul etmədiyindən bu ərazinin adı Xaçmaz - yəni “Xaçı qəbul etməyən” yer anlamına gəlib. Vaxtilə Azərbaycan ərazisində mövcud olan qədim dövlətlərin üzərinə hərbi yürüşlər və basqınlar etmiş işğalçıların yolu Xaçmaz ərazisindən keçib. Eramızdan əvvəl VIII-VI əsrlərdə tikilmiş məşhur Bab əl Əbvab (ərəbcədən "Qapıların Qapısı", Dərbənd qapıları) istehkamları bu işğalçıların yolunda dəf edilə bilməyəcək bir maneə kimi dayanıb.

Rayonda “Əfsanələr paytaxtı” nominasiyasını orada yaşayan insanların zəhmətinin nəticəsi kimi dəyərləndirirlər. Deyirlər ki, bu ad üçün həm də Xaçmazın tarixi, əfsanələri əsas götürülüb. Xaçmazın tarixi əfsanələrlə zəngindir. Rayonun füsunkar təbiəti, tərtəmiz dənizi əfsanələrdə tez-tez hallanır.




*Bu yerlərin gözəlliyi məni heyran etdi.*

***Heydər Əliyev***
***Ümummilli lider***

Qəbələ şəhəri Azərbaycanın qədim şəhərlərindəndir. Böyük Plini yazırdı ki, Albaniyanın əsas şəhəri Kabalakadır. Mənbələrdə Qəbələ adı Vostani-Martspan (yəni fars canişini – mərzbanın paytaxtı) adlandırılan Kavaqak kimi də çəkilir.

I-V əsrlərdə Qəbələ alban Arşakiləri sülaləsi hökmdarlarının iqamətgahı idi. Lakin V əsrdən o, Sasanilərin təyin etdikləri mərzbanlann iqamətgahına çevrildi. VI əsrdə xəzərlərin basqınları ilə əlaqədar mərzbanların iqamətgahı Partava köçürüldü. Qəbələ 737-ci ildə ərəblər tərəfindən işğal edilənədək xəzər torpaqlarının tərkibinə daxil idi.

Qəbələ rayonu indiki rayon mərkəzindən 20 km cənub-qərbdə yerləşən IX əsrdə Qafqaz Albaniyasının paytaxtı olmuş Qədim Qəbələ şəhərinin adını daşıyır. Qədim Qəbələ dünyanın Babil, Troya, Pompey kimi qədim və məşhur şəhərlərilə müqayisə ediləcək dərəcədə mühüm, siyasi-iqtisadi və ticarət mərkəzlərindən biri olmuşdur.

1959-cu ildən müntəzəm qazıntı aparan Qəbələ arxeoloji ekspedisiyası şəhərin daha qədim və böyük hissəsini aşkara çıxardı və buranın e.ə. IV – b.e. I əsrlərinə aid olduğunu müəyyənləşdirdi. Müxtəlif tarixi hadisələrlə əlaqədar şəhər bir neçə dəfə dağıntılara məruz qalmışdır. Eramızdan əvvəl 60-cı illərdə Roma qoşunları Albaniyaya hücum etsələr də, Qəbələni işğal edə bilməmişlər. Sasanilər dövründə Qəbələ çox böyük ticarət və sənətkarlıq mərkəzi olmuşdur. Xilafət dövründə də Qəbələ ticarət və sənətkarlıq mərkəzi kimi əhəmiyyətini qoruyub saxlamışdır. XIII əsrdə monqolların hücumu zamanı Qəbələ tənəzzülə uğrasa da, sonralar yenidən dirçəlmişdir.

XVIII əsrin ortalarında Qəbələ öz əvvəlki əzəmət və əhəmiyyətini itirmiş, əhali tədricən buradan köçmüşdür. Bu vaxt Qəbələ ərazisində kiçik feodal dövləti olan Qutqaşen sultanlığı yaradılmışdır. Qutqaşen sonralar mahal kimi Şəki xanlığının tərkibinə daxil olmuş, Şəki xanlarının təyin etdiyi naiblər tərəfindən idarə edilmişdir. Şəki xanlığının süqutundan sonra Qutqaşen mahal kimi Şəki qəzasının tərkibinə daxil olmuşdur. 8

sentyabr 1930-cu ildə Azərbaycan Respublkiasının İnzibati rayonlarından biri kimi Qutqaşen rayonu yaradılmışdır. Qəbələ ərazisi 4 yanvar 1963-cü ildə Ağdaş rayonunun tərkibinə qatılmış, 17 yanvar 1964-cü ildən yenidən ayrıldıqda inzibati rayona çevrilmişdir. Rayonun adı 7 fevral 1991-ci ilə qədər Qutqaşen, həmin tarixdən isə rayonun qədim adı bərpa edilərək Qəbələ adlandırılmışdı

Rayonda yüzlərlə tarix və mədəniyyət abidələri var. Onlara misal olaraq Əməli kəndində IV-VIII əsrlərə aid olan alban məbədini, Bum kəndində XIX əsrə aid məscidi, Bayramkovxalı kəndində IX-XIV əsrlərə aid Ustacan qalasını, Şəfili kəndində XVII əsrə aid məqbərəni, Həmzəlli kəndində XVI əsrə aid Şıxbaba pirini, Kov Murad dağının zirvəsindəki Kov Murad pirini, Nic kəndində Hacı Qərib məscidini və XIX əsrdə yaşamış Bolu bəyin yaşayış evini göstərmək olar. Həzrə kəndində Şeyx Bədrəddin və Şeyx Mansur məqbərələri XV əsrə aid edilir. Nic kəndinin yaxınlığında Yalovlu dağda eramızdan əvvəl III-I əsrlərdə insan məskəni olub. Bu ərazidə dəmir bıçaqlar, xəncərlər tuncdan hazırlanmış üzüklər, qızıl sırğalar, dəyirman daşları və başqa əşyalar aşkar edilib. Azərbaycanın şimal ərazisində dağlıq və aran rayonlarında həmin dövrə aid olan arxeoloji mədəniyyət elmdə Yalovlu mədəniyyəti adlanır. Qəbələ şəhərində müdafiə təyinatlı qədim qüllə (IX-XI əsrlər), XVIII əsrə aid edilən məscid, İmam Baba məqbərəsi (XVIII-XIX əsrlər), Cümə məscidi, eləcə də böyük tarix diyarşünaslıq muzeyi var. Rayona gələn turistlər də tarixin canlı şahidləri olan bu mədəniyyət abidələri ilə yaxından tanış olur, onlar barəsində daha dolğun informasiyaları həmin muzeydən öyrənirlər.

Qəbələ qədim və zəngin qeyri-maddi mədəni irsi min illər boyu formalaşan xalq yaradıcılığının nailiyyətlərini özündə ehtiva edir. Bu milli-mənəvi zənginliyin dünyaya layiqincə təqdim olunması isə nəticə etibarilə ölkəmizin təbliği və beynəlxalq nüfuzunun yüksəlməsində mühüm əhəmiyyət daşıyır.

2014-cü ildə Qəbələ ölkəmizin "Əfsanələr paytaxtı elan edildi. Həmin layihə əsasında bu bölgəmizdə 120-dək müxtəlif forma və məzmunlu mədəni-kütləvi tədbirlər - festivallar, konsert proqramları, "dəyirmi masa"lar, yaradıcılıq görüşləri, sərgilər və s. təşkil edilmişdir.

Qəbələdə 2013-cü ildən keçirilən "Mürəbbə festivalı" mədəni irsimizin, eləcə də bölgələrimizin əsrarəngiz gözəlliklərinin, turizm imkanlarının təbliği baxımından olduqca vacib layihələr, gələcək illər üçün ənənələrin başlanğıcı hesab edilir.



# Ədəbiyyat

## Kitab


**1992**

**1.İsayev, Ə.** Gəncədən ucalan yol /Əhməd İsayev (buraxılışa məsul); Gəncə və Gəncəlilər Cəmiyyəti.-Gəncə: 1992. 34 s.

**2000**

**2.Tağıyev, B.** Gədəbəy /Bəşir Tağıyev; Elmi red.: Q. Məşədiyev, B. Xəlilov Bakı: Nərgiz, 2000.-79 s.

**2012**

**3.Oruclu, E**. Gəncə: Gəncə yerdəki şəhər /Elcan Oruclu.-Bakı: 2012.-107 s.: ill.

**2009**

**4.Abbasova, F.** Şabran: Şabran şəhərinin tarixi-arxeoloji tədqiqinə dair materiallar /F.Ə.Abbasova; elmi məsləhətçilər: T.Bünyadov [və b.].- Bakı: Elm, 2009. 362, [2] s.

**5.Nuriyev, N.** Qafqazın aynası Qəbələ: [monoqrafiya] /N. Nuriyev; [red. və ön söz A. Tahirov].-Bakı: Gənclik, 2009. 104, [1] s.

**6.Şabran: dünəndən bu günə:** (qədim yazılı mənbə və dövrü nəşrlərdə) /burax. məs. və ön söz. N. Novruzov; toplayıb tərt. ed. A. Tağıyev; red. Ə. Səmədov.-Bakı: Şirvannəşr, 2009.- 84 s.+[4] v.

**2010**

**7.Xudiyev, N.** Xaçmaz /N.M.Xudiyev; elmi red. Y. Mahmudov.-Bakı: "Təhsil" EİM, 2010.- 198, [1] s.

## Dövrü mətbuat

### 2010

**8.Azərbaycan şəhərləri əfsanələr, folklor və sənətkarlıq paytaxtları elan olunmuşdur** //Azərbaycan.-2010. -25 fevral.- S. 2.

**9.Gəncə - Azərbaycanın Əfsanələr Paytaxtı-2010 adlı tədbirə start verilib** /Zümrüd //Səs.-2010.- 12 mart.- S.12.

**10.Gəncə şəhəri "Azərbaycanın Əfsanələr Paytaxtı elan olunub**/Zümrüd //Səs.-2010. - 22 sentyabr. - S. 12.

**11.Gəncə şəhəri əfsanələrdə yaşayan ulu tarixin paytaxtıdır** /Ə.İsayev //Azərbaycan.-2010. - 11 aprel.- S.6.

**12.Xalq Yaradıcılığı Paytaxtları proqramına start verildi:** "Gəncə - Azərbaycanın Əfsanələr Paytaxtı", "Qazax - Folklor Paytaxtı", "Şəki isə Sənətkarlıq Paytaxtı" elan olundu /T. Məhərrəmova //Kaspi.-2010. - 25 fevral.- S.11.

**13.Maddi-mədəni irsin qorunmasında daha bir addım:** Gəncə Azərbaycanın əfsanələr, Qazax folklor, Şəki sənətkarlıq paytaxtı elan olundu /Ayxan //Ekspress.-2010.-25 fevral.- S. 10.

### 2011

**14.Azərbaycanın əfsanələr paytaxtı** /A.Nuriyev //Kaspi.-2011.- 20-22 avqust.- S. 8.

**15.Azərbaycanın əfsanələr paytaxtı: Turizm ili çərçivəsində Şabran şəhərinə gələn turistlərin sayı əvvəlki illərlə müqayisədə 2 dəfə artacaq** //Şərq.-2011.- 7 aprel. - S. 13.

**16.Azərbaycanın əfsanələr paytaxtına infotur təşkil edilmişdir** /A.Tağıyev//Respublika .-2011.- 17 dekabr.- S. 6.

**17.Azərbaycanın əfsanələr paytaxtına infotur təşkil edilmişdir** /A.Şirinova//İki sahil.-2011.- 20 dekabr.- S. 22.

**18.Azərbaycanın Əfsanələr Paytaxtı–Şabran** /A.Lətifov //525-ci qəzet.-2011.- 21 dekabr.- S. 5.

**19.Azərbaycanın əfsanələr, folklor və sənətkarlıq paytaxtları elan olunmuşdur** //Azərbaycan.-2011.- 4 mart.- S. 3.

**20.Bir Şabran əfsanəsi** /E.Cəbrayıloğlu//Ədalət.-2011.- 17 dekabr.- S. 6.

**21.Əfsanələr paytaxtı – Şabran** /A.Əliyev //Azərbaycan.-2011.-5 mart.- S. 6.

**22.Əfsanələr Paytaxtından təəssüratlar** /Ə.Bayramqızı//Xalq qəzeti.-2011.- 18 dekabr.- S. 7.

**23.Əfsanələr paytaxtının həqiqətləri** /S.Elcanlı //525-ci qəzet.-2011.- 3 noyabr.- S. 4.

**24.Əfsanəvi şəhərdən səfər qeydləri** /F.Abdullayeva //Mədəniyyət.-2011.- 21 dekabr.- S. 9.

**25.Gəncə inkişaf yolundadır:** Region /Y.Nəbiyev//Ədalət.-2011. - 19 yanvar. - S. 7.

**26.Şabran – "Azərbaycanın əfsanələr paytaxtı":** Lənkəran "folklor paytaxtı", İsmayıllı "sənətkarlıq paytaxtı" elan edildi /Ayxan //Ekspress.-2011.- 2 fevral.- S. 14.

**27.Şabran – "Əfsanələr paytaxtı"** //Zaman.-2011.- 29-31 dekabr.- S. 3.

**28.Xalq yaradıcılığı paytaxtları**: Şabran, İsmayıllı, Lənkəran /A.Sultanova //Mövqe.-2011.- 15 aprel.- S. 4.

## 2012

**29.Azərbaycanın xalq yaradıcılığı paytaxtlarının təqdimatı olmuşdur** //Azərbaycan.-2012.- 16 mart.- S. 5.

**30.Əfsanə kimi Gədəbəy** /F.Abdullayeva //Mədəniyyət.-2012.- 14 dekabr.- S. 9.

**31.Əfsanələr qədim tarixdən söz açır** /Ə.İsayev //Azərbaycan .-2012.- 18 dekabr.- S.6.

**32.Əfsanələr paytaxtı Gədəbəy** /C.Zərbəliyev // Mədəniyyət.-2012.- 20 aprel.- S. 6.

**33.Əfsanələr paytaxtı"na infotur** /F.Abdullayeva // Mədəniyyət .-2012.- 12 dekabr.- S. 2.

**34.Əfsanələr paytaxtında tədbirlərə start verildi** /F.Abdullayeva //Mədəniyyət.-2012.- 6 aprel.- S. 8.

**35.Əfsanələr real tarixdən söz açır** /Ə.İsayev //Azərbaycan.- 2012.- 14 aprel.- S. 11.

**36.Gədəbəy Əfsanlər Paytaxtı** /E.Əliyev //Mədəni həyat.- 2012.- № 3/4.- S. 59-61.

**37.Gədəbəy tarixin yaddaşında "Əfsanələr Paytaxtı"nda dəyirmi masa** /Fəxriyyə//Mədəniyyət.-2012.-26 sentyabr.- S. 10.

**38.Gədəbəydə "Miskin Abdal" ədəbi məclisi yaradılıb** /Fəxriyyə //Mədəniyyət.-2012.- 8 avqust.- S. 4.

## 2013

**39.Əfsanələr diyarı** /Ü.Həsənli //BakuPost.- 2013.- 28 dekabr. - S.11.

**40.Əfsanələr Paytaxtı və Muzeylər Şəhəri-Xaçmaz** /P.Sadıqov //525-ci qəzet.-2013.- 27 dekabr.- 4.

**41.Əfsanələr paytaxtı Xaçmaz** /Z.Bayramov//Respublika.- 2013.- 22 dekabr.- 6.

**42.Əfsanələr paytaxtı:** Bu ad üçün həm Xaçmazın tarixi, həm də əfsanələri əsas götürülüb /T.Məhərrəmova //Kaspi.-2013.- 26 dekabr.- 9.

**43.Əfsanələr paytaxtı: Xaçmazın gecələri də gözəldir...** /A.Əliyev//Azərbaycan.-2013.- 31 dekabr.- S.7.

**44.Əfsanələr paytaxtına mediatur** //Mədəniyyət.-2013.- 25 dekabr.- S. 2.; Palitra.-25 dekabr.-S.6.

**45.Əfsanələr paytaxtında dəyirmi masa** /N.Məmmədov //Mədəniyyət.-2013.- 27 noyabr.- S. 13.

**46.Əfsanələr paytaxtında sərgi-yarmarka təşkil olunub** /C.Zərbəliyev//Mədəniyyət.-2013.- 23 oktyabr.- S. 8.

**47. Əfsanələr paytaxtından zəngin təəssürat** //Mədəniyyət.- 2013.- 29 dekabr.- S. 8.

**48.Gözəl Gədəbəyin özəllikləri: Ötən ilin "Əfsanələr paytaxtı"** /F.Abdullayeva //Mədəniyyət.-2013.- 15 mart.- S. 10.

**49.Qədim və həmişə cavan Xaçmaz:** Əfsanələr paytaxtı /P. İlqaroğlu //Mədəni həyat.-2013.- №.- 4.- S.47-48.

**50.Xaçmaz 2013-cü ili "Əfsanələr paytaxtı" kimi başa vurdu** /Z.Bayramov//Respublika.-2013.- 25 dekabr.- 6

**2014**

**51.Bizdə şeir də var, sənət də vardır** //Mədəniyyət.-2014.- 24 oktyabr.- S. 5.

**52.Bölgələr "paytaxt" olanda** //Mədəniyyət.-2014.- 30 dekabr.- S. 7.

**53.Bölgələr "paytaxt" olanda...:** "Xalq Yaradıcılığı Paytaxtları" proqramı şəhər və rayonlarımızın mədəni inkişafına zənginlik gətirdi//Mədəniyyət.-2014.- 26 dekabr. - S. 2.

**54.Dağlar qoynunda musiqi bayramı:** Ənənəvi Qəbələ festivalı incəsənətimizin təbliğinə töhfədir//Mədəniyyət.-2014.- 26 dekabr. - S. 7.

**55.Əfsanə bolluğu**: "Şəxsiyyətlər Parkı"nda kimlər var? /E.Cəbrayıloğlu //Ədalət.-2014.- 11 yanvar.- S.6.

**56.Əfsanələr diyarı - Qəbələ mövzusunda dəyirmi masa** //Mədəniyyət.-2014.- 1 oktyabr.- S. 12.

**57.Əfsanələr paytaxtında poeziya axşamı** //Mədəniyyət.-2014.- 26 dekabr. - S. 7.

**58.Əfsanələr paytaxtında poeziya axşamı** //Palitra-2014.- 20 sentyabr.- S. 15

**59.Əfsanələr paytaxtında poeziya axşamı** /Fariz Hüseynov.//Mədəniyyət.-2014.- 19 sentyabr.- S. 2.

**60.Əfsanələr paytaxtında təntənəli tədbir** //Mədəniyyət.-2014.- 17 sentyabr.- S. 2.

**61.Əfsanələr paytaxtında yeni görüşlərədək** /F. Hüseynov//Mədəniyyət.-2014.- 24 sentyabr.- S. 9.

**62.Əfsanələr paytaxtının təqdimatı** /Fəxriyyə //Mədəniyyət.-2014.- 25 aprel.- S. 8.

**63.Əfsanələşən qədim paytaxtın yeni növrağı:** 2014-cü il Qəbələnin tarixində xüsusilə əlamətdar oldu//Mədəniyyət.-2014.- 26 dekabr. - S. 4.

**64.Əsrlərin və nəsillərin mirası:** Minilliklərin yaddaşından süzülüb gələn xalq yaradıcılığı irsimizin gələcək nəsillərə çatdırılması üzərimizə düşən tarixi borcdur /Ə.Qarayev //Mədəniyyət.-2014.- 26 dekabr. - S. 3.

**65.Xalq yaradıcılığı paytaxtlarında qeyri-maddi mədəni irsimiz təbliğ olunur:** Qəbələnin "Azərbaycanın əfsanələr paytaxtı", Balakənin "Azərbaycanın folklor paytaxtı" və Abşeronun "Azərbaycanın sənətkarlıq paytaxtı" elan edilməsi ilə bağlı təqdimat olub /A.Miriyev //Palitra.-2014.- 5 mart.- S.13.

**66.Qəbələ - "paytaxtdan paytaxta" yollar görünür:** "MDB-nin mədəniyyət paytaxtı" missiyasını başa vuran şəhər "Azərbaycanın əfsanələr paytaxtı" kimi yeni tədbirlərə ev sahibliyi edəcək //Mədəniyyət.-2014.- 19 mart.- S. 4.

**67.Qəbələ - tarixdə və əfsanələrdə** //Mədəniyyət .-2014.- 26 dekabr. - S. 7.

**68.Qəbələ Arxeoloji Mərkəzi qədim tarixin sirlərini açır** //Mədəniyyət.-2014.- 26 dekabr. - S. 5.

**69.Qəbələdə ikinci mürəbbə festivalı** //Mədəniyyət.-2014.- 26 dekabr. - S. 6.

**70.Qəbələnin teatr həyatı** //Mədəniyyət .-2014.- 26 dekabr. - S. 7.

**71.Mədəni irs xalqlar arasında körpüdür:** Qəbələnin mədəniyyət işçiləri Dağıstanda keçirilən festivalda iştirak ediblər//Mədəniyyət.-2014.- 26 dekabr. - S. 5.

**72.Mən Azərbaycan haqqında nə bilirəm?**: Yazı müsabiqəsində fərqlənən əcnəbi gənclər "Əfsanələr paytaxtı"nda //Mədəniyyət.-2014.- 26 dekabr. - S. 6.

**73.Milli atüstü oyun ənənələrimiz yaşadılır** //Mədəniyyət.-2014.- 26 dekabr. - S. 9.

**74.Ölkəmizi tanıyaq:** Maarifləndirici tur-aksiyanın iştirakçıları Qəbələyə səfərdən zəngin təəssürat alıblar // Mədəniyyət.-2014.- 26 dekabr. - S. 6.

**75.Regionarda mədəni həyat** //Mədəniyyət.-2014.- 30 dekabr.- S. 7.

**2015**

**76.2014-cü ildə "Azərbaycanın əfsanələr paytaxtı" seçilmiş Qəbələ böyük xariqələr ünvanına çevrilib** /İ. Həsənov //Xalq qəzeti.-2015.- 12 fevral.- S.6.

**77.Minilliklərin mənəvi və mədəni yadigarları qorunur:** 2014-cü ildə Qəbələ "Əfsanələr paytaxtı", Balakən "Folklor paytaxtı", Abşeron isə "Sənətkarlıq paytaxtı" kimi tanındı /M.Nərimanoğlu //Azərbaycan.-2015.- 1 fevral.- S.6.

**İnternet resursları:**

www.azertag.com
www.anl.az
www.clb.az
www . mətbuat.az
www. medya.az
www. sia.az

**Azərbaycanın Əfsanələr paytaxtları**
(Gəncə, Şabran, Gədəbəy, Xaçmaz, Qəbələ)
Respublika Uşaq kitabxanaları üçün
tövsiyə biblioqrafiyası

**Komputer yığımı**
**və dizayn:** **Tünzalə Əzizova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: info@clb.az**
**URL:www.clb.az**

F. Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 2
Çapa imzalanmışdır: 13.12.2017
Tirajı:100
Pulsuz.